# SEKSİZM: ONU GÖR, ONA AD QOY, ONU DAYANDIR!



Tərcümə Avropa İttifaqı tərəfindən birgə maliyyələşdirilir

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Bu tərcümə Avropa İttifaqının və Avropa Şurasının birgə maliyyələşdirdiyi "Azərbaycanda İstanbul Konvensiyası və digər gender bərabərliyi standartlarına dair məlumatlılığın artırılması" layihəsi çərçivəsində hazırlanıb. Burada ifadə olunan fikirlər hər iki tərəfin rəsmi mövqeyini əks etdirməyə bilər.

Bu sənədin hamısının və ya bir hissəsinin dərci və ya tərcüməsi ilə bağlı bütün müraciətlər Kommunikasiya Direktorluğuna (F-67075 Strasburq Cedex və ya publishing@coe.int) ünvanlanmalıdır. Bu sənədlə əlaqədar bütün digər yazışmalar Demokratiya Baş Direktorluğuna Ünvanlanmalıdır.

Üz qabığı və tərtibat: Sənədlərin və Nəşrlərin İstehsalı Departamenti (SPDP), Avropa Şurası

Azərbaycan dilində tərtibat: 360Marcom

İllüstrasiya: © Avropa Şurası, 2021

# Avropa Şurasının gender bərabərliyi sahəsindəki fəaliyyəti

Gender bərabərliyi Avropa Şurasının mühüm siyasi məqsədidir. Prioritet fəaliyyət sahələri 2018-2023-ci illər üçün Gender Bərabərliyi Strategiyası ilə müəyyən edilir, iş metodlarına isə 47 üzv dövlətin nümayəndələri ilə Gender Bərabərliyi Komissiyası daxilində hökumətlərarası iş, ölkə səviyyəsində əməkdaşlıq layihələri və Avropa Şurasının fəaliyyətinin bütün sahələrində gender aspektinin nəzərə alınması daxildir. Gender stereotiplərinə və seksizmə qarşı mübarizə 2013-cü ildən bəri Avropa Şurasının prioritetidir və bu sahədə, xüsusilə də media və təhsil sektorlarında müxtəlif tədbirlər həyata keçirilir.



# Avropa Şurası Nazirlər Komitəsinin Seksizmin qarşısının alınması və onunla mübarizəyə dair 2019-cu il tarixli Tövsiyəsi

2019-cu ilin mart ayında Avropa Şurasının Nazirlər Komitəsi Seksizmin qarşısının alınması və onunla mübarizəyə dair CM/Rec(2019)1 saylı Tövsiyəsini qəbul etmişdir.

Tövsiyə seksizmin beynəlxalq səviyyədə razılaşdırılmış ilk anlayışını özündə ehtiva edir ki, bu anlayış şəxsin və ya şəxslər qrupunun cinsi mənsubiyyətinə görə aşağı səviyyəli olması fikrinə əsaslanan istənilən hərəkəti, jesti, vizual təsviri, şifahi və ya yazılı sözləri, praktikanı və ya davranışı əhatə edir. Tövsiyədə qeyd olunur ki, seksist davranış qadın və qızlara qeyri-mütənasib şəkildə təsir göstərir, ayrı-seçkiliyə və onların cəmiyyətdə tam inkişafının qarşısının alınmasına gətirib çıxarır.



Tövsiyədə, həmçinin seksizm və qadınlara qarşı zorakılıq arasındakı əlaqə xüsusi vurğulanır. Belə ki, “gündəlik” seksist aktlar təhdid, qorxu, ayrı-seçkilik, təcrid və müdafiəsizlik mühiti yaradan mütəmadi zorakılığın tərkib hissəsidir və bu cür zorakılıq, ilk növbədə qadınlara təsir edir, onların imkanlarını və azadlıqlarını məhdudlaşdırır.

Tövsiyədə seksist davranışın nədən ibarət olduğu qeyd olunur və müxtəlif maraqlı tərəflərin onu müəyyənləşdirməsi və onunla mübarizə aparması üçün praktiki üsullar təklif edilir. Tövsiyə həm seksizmin qarşısının alınması, həm də ona qarşı mübarizə üçün əhatəli tədbirlər toplusunu özündə ehtiva edir və aşağıdakı sahələrdə xüsusi tədbirlər tələb edir: dil və ünsiyyət; mətbuat, internet və sosial media; reklam və digər kommunikasiya vasitələri; iş yeri; dövlət sektoru; ədliyyə sektoru; təhsil müəssisələri; mədəniyyət və idman; və nəhayət özəl sahə.

Cəmiyyətin bu sahədə artan gözləntilərinə cavab olaraq qəbul edilən bu innovativ sənəd seksizmin bütün sektorlarda və cəmiyyətlərdə geniş yayılması və üstünlük təşkil etməsi səbəbindən Təşkilatın 47 üzv dövlətini həyatın bütün sahələrində seksizmə qarşı mübarizəni sürətləndirməyə və seksizmi pisləyən və seksist nifrət nitqini cinayət kimi müəyyən edən qanunvericilik qəbul etməyə çağırır. Tövsiyədə, həmçinin



dövlətlər seksizmə qarşı mübarizə siyasətinin milli səviyyədə həyata keçirilməsini monitorinq etməyə və Avropa Şurasına dövri hesabatlar təqdim etməyə çağırılırlar.

- Müxtəlif dillərdə resurslarla təqdim edilən Avropa Şurasının “Seksizm: Gör. Adlandır. Dayandır.” onlayn kampaniyasının məqsədi bu problem barədə məlumatlılığı artırmaq və onu aradan qaldırmaqdır. Bu broşura seksizmin nə olduğunu izah etmək və “seksizmdən və onun təzahürlərindən azad bir Avropa yaratmaq” üçün tələb olunan dünyagörüşü dəyişikliyini necə təşviq etmək barədə ideyalar təqdim etmək üçün hazırlanmışdır (Seksizmin qarşısının alınması və onunla mübarizəyə dair CM/Rec(2019)1 saylı Tövsiyə).



# Seksizm nədir?

Seksizm bəzi insanların, əksər hallarda qadınların cinsi mənsubiyyətinə görə aşağı səviyyəli olduqları fikrinə əsaslanan hər hansı ifadə formasıdır (hərəkət, söz, təsvir, jest).

Tarixən fərdi hərəkətlərlə yanaşı, bizim mədəni normalarımız da (istər dilin, istər sənətin, istər tarixin, istər hüququn, istərsə də siyasi təsisatların normaları) kişi hökmranlığını və müvafiq olaraq seksizmi əks etdirən ideya və təcrübələri özündə daşımışdır və hələ də daşıyır.

Bəzən seksizm dolayı yolla, məsələn, yumorla ifadə edilir, amma bunlar heç vaxt "sadəcə zarafat" olmur. Onlar əslində istehzadır və çox zaman məqsədi insanla birlikdə gülmək deyil, onun özünə gülməkdir. Bu alçaldıcı yumor sosial hökmranlıq və stereotip münasibətlərini qorumaq və nəticə etibarilə insanları susdurmaq üçün silaha çevrilə bilər. İfadə azadlığı bir qrup insanı təhqir etmək, dəyərdən salmaq və ya alçaltmaq üçün bəhanə və ya vasitə kimi istifadə edilə bilməz.

# Seksizmin təsirləri nədən ibarətdir?

Seksizm zərərli olaraq, qadın və kişilər arasında bərabərsizliyin əsasını təşkil edir və ayrı-seçkiliyə gətirib çıxara bilər. Qadınların əksəriyyəti hansısa məqamda seksist akta məruz qalıblar. Səhərlər ictimai nəqliyyatda yersiz atmacalar, işdə mühüm bir iclasda iştirak üçün çağırılmamaq, ev təsərrüfatı və valideynlik vəzifələrinin qeyri-bərabər bölüşdürülməsi, daha sonra axşam saatlarında televiziya tok-şousunda seksist ifadələr – bütün bu seksist aktlar bir çox qadının gün boyu yaşadığı hadisələrdir. Hər yerdə mövcud olan bu münasibət davamlı və ömürlük bir yükdür.

Seksizm dəyərsizlik hissini, təcridolma strategiyalarını və özünüsenzuranı doğurur, davranışda dəyişikliklərə və sağlamlıq durumunun pisləşməsinə səbəb olur. Ayrı-ayrı seksist aktlar qorxu və müdafiəsizlik mühiti yaradır ki, bu da xüsusilə qadınlara və qızlara qarşı zorakılığa tolerant yanaşmağa gətirib çıxara bilər.

# Seksizm kimlərə təsir edir?

- Seksizm hər kəsə təsir edir, amma qadınlar və qızlar ondan qeyri-mütənasib şəkildə əziyyət çəkirlər. İctimai xadim olan qadınlar (siyasətçilər, jurnalistlər, məşhurlar), kişilərin üstünlük təşkil etdiyi mühitdə işləyənlər və gənc qadınlar xüsusilə seksizmin hədəfində olurlar. Çox vaxt gözlənilən ənənəvi rola uyğun gəlməyən hərəkətlər etdikdə onlar qınanırlar.

- Seksizmin mənfi təsiri bəzi insanlar üçün, məsələn, onların etnik mənsubiyyəti, yaşı, əlilliyi, sosial mənşəyi, dini, cinsi mənsubiyyəti və ya özünüifadəsi, cinsi oriyentasiyası, miqrasiya statusu və ya digər amillər səbəbindən daha ciddi ola bilər.

- Seksizm kişilərə və oğlanlara da, xüsusən onlar ənənəvi kişi stereotiplərinə uyğun gəlmədikdə təsir göstərir. Bu, kişilərin öz övladlarının həyatında yaxından iştirak etmələri, əsasən və ya ənənəvi olaraq qadınların çalışdığı işlərdə (mamaçalar, tibb bacıları və s.) çalışdıqları zaman və yaxud “kişi” mövzuları və ya fəaliyyətləri kimi qəbul edilən mövzularla və fəaliyyətlərlə (müəyyən idman növləri, təsərrüfat bacarıqları, “seksual nailiyyətlər” və s.) maraqlanmadıqları zaman baş verə bilər.





## Seksist kimdir?

Fransada 2018-ci ildə seksist aktların qurbanlarının 87%-i qadınlar, təqsirləndirilənlərin 91%-i kişilər olmuşdur. Lakin kişilərin hamısı seksist deyil və seksizmə qarşı mübarizədə onların üzərinə böyük məsuliyyət düşür! Eynilə bəzi qadınlar seksist stereotipləri və ya təcrübələri ötürür və daimiləşdirirlər. Çox vaxt seksizmi pisləmək özünü istehza hədəfinə və ya daha pisinə – təcavüzkarlıq hədəfinə çevirmək anlamına gələ bilər. Buna görə də seksizmə qarşı çıxmaqdan ehtiyat edənləri dərhal tənqid etməməliyik.

Seksizmdə təbii heç nə yoxdur və bu səbəbdən də nə qadınlar, nə də kişilər təbiət etibarilə seksist deyillər. Digər tərəfdən, hamımızın öz qavrayışlarımıza yenidən baxmağımıza ehtiyac vardır.

# Dil və ünsiyyətdə seksizm



**Nümunələr:**

- Avtomobilin reklamı üçün yarıçılpaq qadın şəklindən istifadə edilməsi; qarışıq insan qrupu ilə danışarkən qadınları əhatə etməyən dildən istifadə edilməsi; şirkətinizin vizual kommunikasiyasında yalnız kişi təsvirlərindən istifadə edilməsi.

**Bu niyə həll edilməlidir?**

- Seksist dil və təsvirlər seksist yanaşmaları və davranışı gücləndirir. İfadələrdə və ya təsvirlərdə bəzi insanların və ya rolların əyani şəkildə göstərilməsi və ya göstərilməməsi çox zaman qadınları və onların cəmiyyətə verdiyi töhfələri görünməz hala gətirir. Stereotiplərin istifadəsi qadınların və kişilərin müəyyən xarakter xüsusiyyətlərini qabardaraq problem yaradır.

**Bunun qarşısını necə almalı?**

- Qarışıq auditoriyaya müraciət edərkən hamını əhatə edən dildən istifadə edin. Seksist ifadələri aradan qaldırın. Ünsiyyət vasitələrinin qadın və kişilərin balanslı və fərqli təsvirlərini təqdim etməsini və (və ya) stereotipləri şübhə altına almasını təmin edin. Gender amilini nəzərə alan ünsiyyətə dair təlimatlar dərc etdirin. Bu sahədə təlim və tədqiqatları təşviq edin.

# Mətbuatda, internetdə və sosial mediada seksizm

**Nümunələr:**

- Qadın siyasətçilərin ideyalarına deyil, xarici görünüşünə həsr olunan məqalələr; qadınları yalnız şahid kimi və yaxud stereotip və ya seksist rollarda təqdim edən və yalnız nadir hallarda ekspert kimi təqdim edən televiziya proqramları; alqoritmlərin qərəzli şəkildə qurulması səbəbindən müəyyən iş təkliflərini yalnız kişilərə göndərən internet tətbiqləri (proqramları).

**Bu niyə həll edilməlidir?**

- Mediadakı seksist ismarıclar stereotipləri gücləndirir, məhdud rollarla qadınların və kişilərin əl-qolunu bağlayır və real ziyana səbəb olur. Onlar bəzi insanların, məsələn gənc qadınların, qadın jurnalistlərin və ya qadın fəalların istehza və təhqirlərdən yaxa qurtarmaq üçün sosial mediadan uzaqlaşmasına gətirib çıxara bilər.

**Fakt:** Ümumilikdə, müsahibə aparılmış hər 3 qadın jurnalistdən demək olar ki, 2-si ən azı bir dəfə internetdə təhdid edildiklərini və ya zorakılığa məruz qaldıqlarını bildirdilər. Bunlardan təqribən 40%-i onlayn təzyiq səbəbindən müəyyən mövzularda məlumat verməkdən çəkindiklərini söylədilər.



**Bunun qarşısını necə almalı?**



- Seksist nifrət nitqinin (xüsusən də internet üzərindən) hüquqi anlayışını verin və onu cinayət əməli kimi müəyyən edin. Gənclər və uşaqlar da daxil olmaqla insanlar üçün rəqəmsal bacarıqlara dair təlimlər keçin. İnternetdə onlayn seksizmə qarşı necə mübarizə aparmaq barədə məsləhətlər verən ixtisaslaşmış xidmətlər yaradın. Media və kommunikasiya mütəxəssislərinə təlimlər keçin. Seksist məzmunlu materialları kütləvi informasiya vasitələrinin fəaliyyətini tənzimləyən orqanlara göndərin.

# İş yerində seksizm

**Nümunələr:**

- Qadının yetərincə nüfuzunun olmaması və ya tələb olunduğu hallarda iş yerində olmaması ehtimalına görə qadının deyil, kişinin yüksək ixtisaslı işə keçirilməsi; iclasda qadınlar üçün onlara tanış olan mövzuda mühazirə oxunması; həmkarın uşaq tipli və ya ərkyana formalı adlarla çağırılması; karyera seçimi edərkən ailəsinin həyatında daha çox iştirak etməyə önəm verən kişilər haqqında alçaldıcı şərhlər vermək.



**Bu niyə həll edilməlidir?**

- İşdə seksizm qorxu və təzyiq mühiti yaradır və hər kəsin öz potensialını reallaşdırmasına zərər yetirir. Ümumiyyətlə, seksizm onun hədəfində olanların maaşlarının daha az olmasına və daha az imkanlara malik olmasına gətirib çıxarır.

**Bunun qarşısını necə almalı?**

- Əmək qanunvericiliyinə yenidən baxın və seksizmə qarşı mübarizə barədə müddəaları ora daxil edin. Əmək haqqı, mükafat və ya yüksək ixtisaslı işə keçirmə məsələlərində gender boşluqlarını müəyyənləşdirin və aradan qaldırın. Seksist davranış baş verdikdə onun qarşısını almaq üçün şikayətlərin verilməsi, intizam tədbirlərinin görülməsi və dəstək xidmətlərinin təşkili mexanizmlərini qurun. Seksist davranışın anlayışını verən davranış kodekslərini qəbul və tətbiq edin və onun qarşısının alınması üzrə təlimlər keçin. İş yerində məlumatlılığı artırın.



# Dövlət sektorunda seksizm

**Nümunələr:**

Məşğulluq/karyera məsləhətləri mərkəzində qadının “kişi” vəzifəsi deyilən müəyyən vəzifələrdə çalışmaqdan çəkindirilməsi; xəstəxanaya qəbul zamanı qadının xəstəlik simptomları barədə dediklərini şübhə altına alaraq və ya mübahisələndirərək tibbi yardım göstərməkdən imtina edilməsi; istifadəçilərin cinsi oriyentasiyası və ya xarici görünüşü barədə dövlət qulluqçularının şərhləri; yaxud qadınların ictimai məkanda görünüşünə dair şərhlər.



**Fakt:** Parlamentdəki qadın deputatların 68%-i zahiri görünüşlərinə və ya gender stereotiplərinə əsaslanan şərhlərin hədəfi olurlar.

**Bu niyə həll edilməlidir?**

- Dövlət sektoru digərləri üçün nümunə olmalıdır. Seksizm dövlət xidmətlərindən və ictimai məkandan istifadə edənlərin həmin xidmətlərə və məkana bərabər çıxış imkanına xələl gətirir. O, sıxıntılı mühit yaradır, əsasən qadınların orada çalışmalarının və ya siyasi və ictimai həyatda tam iştirak etmələrinin qarşısını alır.

**Bunun qarşısını necə almalı?**

- Seksizmi qadağan edən qanunvericilik, davranış qaydaları qəbul edin, şikayət mexanizmləri, intizam tədbirləri və dəstək xidmətləri tətbiq edin. İşçilər üçün təlimlər keçin və ictimai yerlərdə müvafiq materiallardan və ya posterlərdən istifadə etməklə onlar arasında məlumatlılığı artırın. Dövlət satınalmalarına dair müqavilələrə seksizmə qarşı mübarizə barədə bənd daxil edin. Qərarların qəbulu prosesində hər kəsin iştirakını təşviq edin. Tədqiqatları və məlumatların toplanmasını təşviq edin.



# Ədliyyə sektorunda seksizm

## Nümunələr:

— Polis əməkdaşının məişət zorakılığı barədə şikayətlə əlaqədar tədbir görməkdən imtina etməsi və ya şikayət etmiş qadının sözlərini şübhə altına alması; hakimin şikayətçiyə faktlar barədə deyil, geyimi və ya cinsi münasibətləri barədə suallar verməsi; peşə birliyinin rəhbər orqanının əsasən kişilərdən ibarət olması; gənc zorlama qurbanının sərxoş vəziyyətdə olaraq özünün bu barədə "xahiş etdiyinə" dair stereotip.

**Fakt:** Avropada orta hesabla polis işçilərinin yalnız 17,7%-i qadınlardır. Halbuki polis şöbələri qadınların işləri ilə də kişilərinki qədər məşğul olmalıdırlar. Xüsusilə qadınlara qarşı zorakılıq hallarında qurbanlar bəzən qadın polis əməkdaşı ilə danışmağa üstünlük verirlər.

## Bu niyə həll edilməlidir?

— Seksist xurafat və davranış qurbanlarda ədliyyə sisteminə qarşı inamsızlıq yarada və ciddi insidentlər barədə məlumat verməmələrinə gətirib çıxara bilər. Bundan əlavə, məsələn, qadın vəkillərə və ya hakimlərə qarşı seksizm onları peşələrini tərk etməyə sövq edə bilər.

## Bunun qarşısını necə almalı?

— Seksist davranış barədə polisə xəbər vermə qaydalarını sadələşdirin. Ədliyyə sektorunda iş yerində gender bərabərliyi siyasətini həyata keçirin. Təlimlərin və məlumatlılığın artırılması kampaniyalarının köməyi ilə stereotiplərlə mübarizə aparın, habelə qadınların zorakılıqdan, insan alverindən və s.-dən müdafiəsinə dair milli və beynəlxalq standartları təbliğ və tətbiq edin. Verilən qərarların qurbanın davranışına və görünüşünə deyil, faktlara, cinayətkarın davranışına və işin kontekstinə əsaslandığına əmin olun.

# Təhsildə seksizm

## Nümunələr:

(Təhsil personalının qızlara və oğlanlara (qeyri-ixtiyari) qərəzli və ya ayrı-seçkilik xarakterli münasibəti; tədris, dərsliklər və ya metodiki təlimatlar vasitəsilə stereotiplərin daimiləşdirilməsi; gənclərin görünüşü və ya seksuallığı ilə bağlı şərhlərin və hətta təhdidlərin müəlliflərinin, o cümlədən belə şagirdlərin və tələbələrin cəzalandırılmaması.

**Fakt:** Birləşmiş Krallıqda sorğu çərçivəsində suallar verilən 16-18 yaşlı qızların 66%-i məktəbdə seksist şərhlərin hədəfi və ya şahidi olmuşlar.



## Bu niyə həll edilməlidir?

Seksist mühit (istər tədris materiallarında, istərsə də təhsil işçilərinin və ya gənclərin davranışında) şagirdlərin və tələbələrin tədris göstəricilərinə mənfi təsir göstərir və onların karyera və həyat yolu seçimlərini məhdudlaşdıra bilər. Məktəblər seksizmə qarşı mübarizədə və bərabərliyin tədrisində nümunə olmalıdırlar.



## Bunun qarşısını necə almalı?

Təhsildə gender bərabərliyinə dair siyasət və qanunvericiliyi tətbiq edin. Seksizmin kökünün kəsilməsi, təhsildə qadın sənət adamlarının, qadın alimlərin və siyasətçilərin iştirakının təmin edilməsi və qadınların və kişilərin stereotip formada təsvir edilməməsi üçün tədris proqramlarına və dərsliklərə yenidən baxın. Şikayət mexanizmlərini əlyetər edin. Qadın tarixini, gender bərabərliyini cinsi təhsili (razılıq əsasında və fərdi çərçivələr daxilində) tədris edin. Təhsil işçilərinə qərəzli fikirlərlə necə mübarizə aparacaqlarını öyrədin və bunun üçün onlara lazımi vasitələr təqdim edin (mənbələr, qabaqcıl təcrübələr).



# Mədəniyyət və idmanda seksizm

**Nümunələr:**

- Əsasən qadınların məşğul olduğu idman növlərinə az vəsait və ya mediada az vaxt ayırmaqla həmin növlərin aşağı qiymətləndirilməsi və "qadın" idman növü deyilən idman növləri ilə məşğul olan kişilərin lağa qoyulması; mediada idmançı qadınlara ailə həyatı barədə suallar verilməsi və ya onların seksual pozalarda görüntüyə alınması; muzeylərdə və ya sənət əsərlərinə görə verilən böyük mükafatların təqdimatında qadınların sənət tarixinə töhfələrinin görünməz hala gətirilməsi; incəsənət və idmandakı təzyiq və təhdidlər haqqında danışmaqdan imtina edilməsi.

**Fakt:** 2019-cu ildə keçirilmiş qadınlar arasında futbol üzrə Dünya Kuboku yarışında milli komandalara 30 milyon dollar bonus ödənildi. 2018-ci ildə keçirilmiş kişilər arasında futbol üzrə Dünya Kuboku yarışında isə bu məbləğ 13 qat yüksək – 400 milyon dollar idi.

## Bu niyə həll edilməlidir?

- İncəsənət, mədəniyyət və idman gender münasibətlərinin və rollarının formalaşmasında mühüm rol oynayır. Qadın və kişilərin tez-tez təqdim olunan stereotip təsvirləri insanların asudə vaxtlarını necə keçirəcklərini sərbəst surətdə müəyyənləşdirmələrini, öz çıxışları və ya istedadları ilə özlərini ifadə edə bilmələrini çətinləşdirir. Seksizm onun hədəfində olanların əmək haqlarının daha az olmasına və daha az imkanlara malik olmasına gətirib çıxarır.

## Bunun qarşısını necə almalı?

- Mədəniyyət və idman siyasətlərini və onların maliyyələşdirilməsi qaydasını (qərarların qəbulu, qrantlar, sərgilər, təlimlər, tikililər/məkanlar) müəyyənləşdirərkən gender bərabərliyi amilini nəzərə alan tədbirlər görün. Qadınların məşğul olduğu idman və ya mədəniyyət fəaliyyətlərinin mediada daha yaxşı işıqlandırılmasını təmin edin. Seksist davranışın qarşısını almaq üçün davranış kodeksləri qəbul edin. İntizam tədbirləri tətbiq edin. Qadınlara qarşı zorakılığın kiçildilmiş və ya şişirdilmiş şəkildə təqdimatını təşviq etməyin.



# Özəl sahədə seksizm

## Nümunələr:

- Ailələrdə valideynliyin və ev təsərrüfatının mənəvi yükünün əksəriyyətini qadınların öz üzərinə götürməsi, yəni bütün bu vəzifələri onların qabaqcadan düşünməsi, planlaşdırması və koordinasiya etməsi; stereotip qız və oğlan personajlarını əks etdirən uşaq kitabları və ya komikslər; müəyyən geyim rənglərinin və aksessuarların qızlara, digərlərinin isə oğlanlara aid edilməsi.

**Fakt:** Avropada ailə və məişət işlərinə qadınlar orta hesabla həftədə 22 saat, kişilər isə cəmi 9 saat vaxt sərf edirlər.

## Bu niyə həll edilməlidir?

- Ailədə ödənişsiz iş qadınların əmək bazarında, qərarların qəbulunda iştirakına, asudə vaxtlarını keçirmələrinə və ictimai fəaliyyətlərdə iştirakına təsir göstərir ki, bu da onların iqtisadi müstəqilliklərinə birbaşa təsir göstərir. Qeyri-bərabər əmək bölgüsü və «qadın» və ya «kişi» rollarının ayrılması uşaqlıqdan başlayır və təhsil vasitəsilə insanların xarakterini formalaşdırır və istər təhsildə, istərsə də peşə və şəxsi həyatlarında seçim etmələrinə təsir göstərir.

## Bunun qarşısını necə almalı?

- Hamı üçün iş və şəxsi həyat arasında daha yaxşı balansa nail olmaqdan ötrü tədbirlər həyata keçirin (məsələn, uşaqlara münasib qiymətli və keyfiyyətli qulluq, ödənişli analıq, atalıq və valideynlik məzuniyyəti). Ailələrdə ödənişsiz işlərin təsiri və bölgüsü ilə bağlı məlumatlılığı artırın və araşdırmalar aparın. Məktəbəqədər hazırlıq sektorunda çalışan işçilərə təlim keçin. Oğlan və qız uşaqlarını ev işlərində valideynlərinə kömək etməyə təşviq edin. Qızların oyun oynamaq və yeni şeylər öyrənmək üçün oğlanlarla eyni məkana və sərbəstliyə malik olmasını təmin edin.



# Avropa Şurasının Tövsiyəsinin icrası

Avropa Şurasının seksizmə qarşı mübarizəyə dair təklifləri, ilk növbədə Təşkilatın 47 üzv ölkəsinə ünvanlanmışdır. Lakin bu təkliflər şirkətlər, birliklər, yerli hakimiyyət orqanları, təhsil müəssisələri və hər növ təşkilatlar tərəfindən də həyata keçirilə bilər. Aşağıdakılar atıla biləcək addımlara dair bəzi ideyalardır:



- seksist hərəkətlər barədə məlumat verilməsi, təqsirkarların cəzalandırılması və qurbanların dəstəklənməsi üçün daxili prosessual qaydalar tətbiq etmək.
- konkret kontekstə uyğun olaraq seksizmlə bağlı davranış kodeksləri və ya rəhbər prinsiplər hazırlamaq və tətbiq etmək.
- təlim kurslarını və məlumatlılığın artırılması kampaniyalarını keçirmək və işçilər, xidmət təchizatçıları və tərəfdaşlar üçün informasiya vəsaitləri hazırlamaq.
- mövcud mənbələrdən istifadə edərək təşkilatlar daxilində istifadə olunan dilin və ünsiyyət vasitələrinin inklüziv və qeyri-seksist olmasını təmin etmək.
- seksizmin qarşısının alınması və onunla mübarizə aparılması ilə bağlı qabaqcıl təcrübələri, təlimləri və vasitələri müəyyənləşdirmək və paylaşmaq üçün qadın təşkilatları və (və ya) feminist təşkilatlar da daxil olmaqla vətəndaş cəmiyyəti təşkilatları ilə əməkdaşlıq şəraitində çalışmaq.

## Kampaniyanı təbliğ edin

- Avropa Şurasının veb-saytında “Seksizmin qarşısının alınmasına və onunla mübarizəyə dair Tövsiyə”nin tam mətnini tapın: https://www.coe.int/en/web/genderequality/combating-and-preventing-sexism
- Kampaniyanın veb-səhifəsinə daxil olun: https://www.coe.int/en/web/human-rights-channel/stop-sexism
- Kampaniyanı və sorğunu sosial mediada təbliğ edin.

## Seksizmi daha yaxşı başa düşmək üçün anlayışlar

**Seksizm** “şəxsin və ya şəxslər qrupunun cinsi mənsubiyyətinə görə aşağı səviyyəli olması fikrinə əsaslanan, dövlət və ya özəl sahədə baş verən, aşağıdakı məqsədlər üçün həyata keçirilən və ya aşağıdakı nəticələri doğuran istənilən hərəkəti, jesti, vizual təsviri, şifahi və ya yazılı sözləri, praktikanı və ya davranışı əhatə edir:

- şəxsin və ya şəxslər qrupunun özünə xas olan ləyaqətini alçaltmaq və ya hüquqlarını pozmaq; yaxud
- şəxsə və ya şəxslər qrupuna fiziki, cinsi, mənəvi və ya sosial-iqtisadi zərər və ya əziyyət yetirilməsinə səbəb olmaq; yaxud



- qorxuducu, düşmənçilik xarakterli, alçaldıcı və ya təhqiramiz mühit yaratmaq; yaxud
- şəxs və ya şəxslər qrupu tərəfindən insan hüquqlarının sərbəst və tam həyata keçirilməsinə maneə yaratmaq; yaxud
- gender stereotiplərini qoruyub saxlamaq və möhkəmləndirmək."

*(Avropa Şurası Nazirlər Komitəsinin Seksizmin qarşısının alınması və onunla mübarizəyə dair CM/Rec(2019)1 saylı Tövsiyəsi)*

**Gender stereotipləri** "öncədən şüurlarda kök salan, qadınlara və kişilərə cinsi mənsubiyyətləri ilə müəyyən edilən və məhdudlaşan xarakteristikalar və rollar ayıran sosial və mədəni modellər və ya ideyalardır. Gender stereotipləri real gender bərabərliyinə nail olmaq qarşısında ciddi maneə təşkil edir və cinsi ayrı-seçkiliyə zəmin yaradır. Belə stereotiplər qızların və oğlanların, qadınların və kişilərin təbii istedadlarının və qabiliyyətlərinin inkişafını, təhsil və peşə seçimlərini və təcrübələrini, eləcə də bütövlükdə həyatdakı imkanlarını məhdudlaşdıra bilər"

*(Avropa Şurasının 2018-2023-cü illər üçün Gender Bərabərliyi Strategiyası)*



# "Seksizmdən və onun təzahürlərindən azad bir Avropa yaratmağa çalışmaq."

*Avropa Şurası Nazirlər Komitəsinin Seksizmin qarşısının alınması və onunla mübarizəyə dair CM/Rec(2019)1 saylı Tövsiyəsi*

**www.coe.int/equality**

**gender.equality@coe.int**

AZE

Avropa Şurası qitənin insan hüquqlarını müdafiə edən aparıcı təşkilatıdır. Avropa İttifaqına üzv olan bütün dövlətlər daxil olmaqla, təşkilat 47 üzv dövlətdən ibarətdir. Avropa Şurasının bütün üzv dövlətləri insan hüquqları, demokratiya və qanunun aliliyini qorumağı nəzərdə tutan Avropa İnsan Hüquqları Konvensiyasını imzalamışdır. Avropa İnsan Hüquqları Məhkəməsi Konvensiyanın üzv dövlətlərdə tətbiq edilməsinə nəzarət edir.

www.coe.int

Avropa İttifaqının üzv dövlətləri bilik və bacarıqlarını, resurslarını və müqəddaratlarını bir araya gətirməyə qərar veriblər. Mədəni müxtəlifli - yi, tolerantlığı və fərdi azadlıqları qoruyaraq birlikdə sabitlik zonası- na, demokratiyaya və dayanıqlı inkişafa nail olublar. Avropa İttifaqı öz sərhədlərindən kənarda yerləşən digər ölkə və xalqlarla öz nailiyyətlərini və dəyərlərini bölüşməyə qərarlıdır.

http://europa.eu

Tərcümə Avropa İttifaqı tərəfindən birgə maliyyələşdirilir

COUNCIL OF EUROPE

CONSEIL DE L'EUROPE